| | | |
|---|---|---|
| **Tanınma** | **Fənn (kodu, adı, kreditlərin sayı)** | **ECON 830 Müəssisə iqtisadiyyatı, 3KU credits (6ECTS)** |
| | **Departament** | İqtisadiyyat və Menecment |
| | **Program** | Magistr |
| | **Semestr** | 2025/2026-cı ilin payız semestri |
| | **Müəllim** | Ruslan Atakişiyev |
| | **E-mail:** | ruslan.atakishiyev@khazar.org |
| | **Otaq / saat** | |
| | **Office hours** | Tələbələrlə fərdi razılaşma əsasında |
| **Prerekvizitlər** | Yoxdur | |
| **Dil** | Azərbaycan | |
| **Məcburi/Seçmə** | Məcburi | |
| **Tələb olunan dərsliklər və dərs vəsaitləri** | Cey Heyzer, Barri Render, Çak Manson - Əməliyyatların idarə edilməsi prinsipləri, "TEAS Press" Nəşriyyat evi, 2020<br>N.Qreqori Mənkyu - Ekonomiksin Əsasları, 8-ci nəşr, "Cengage Learning" nəşriyyatı 2017<br>Robbinson, Koulter, Desenzo "İdarəetmənin əsasları", Teas Press nəşriyyatı 2019;<br>Telman Hüseynov - Firmanın iqtisadiyyatı, Baki 2009<br>Bəyalı Ataşov, Nurpaşa Novruzov, Elşən İbrahimov/Müəssisələrin maliyyəsi, Bakı 2009;<br>Ailə Şirkətlərinin İdarə olunması - Beynəlxalq Maliyyə Korporasiyasının təlimatı 2018<br>Müəllimin göndərdiyi mühazirə materialları | |
| **Kursun məzmunu** | Çağdaş iqtisadi ali təhsilin başlıca məqsədi ölkənin sosial – iqtisadi inkişafına, özəl sektorun tələblərinə uyğun kadr hazırlığının həyata keçirilməsidir. Müəssisə iqtisadiyyatı fənni də magistrlərin əmək qabiliyyətini artırmaqla onların rəqabət üstünlüyünə töhfə verir.<br>Müəssisənin necə işlədiyini anlamadan şirkətlərdə uğurlu karyera qurmaq çətindir. Hətta iqtisadiyyatın müxtəlif peşələrinə yiyələnən istənilən tələbə özəl sektorda işləmək üçün mütləq müəssisənin iqtisadi mühitini anlamalı və onu dərk etməlidir.<br>Bu kurs müəssisə ilə bağlı əsas elementlərin bütövlüyünü özündə xarakterizə edir. Beləki, kurs boyu bazar mexanizminin başlıca hərəkətverici qüvvələrinin əlaqəsi, tələb və təklif, taraz bazar qiyməti, elastiklik kimi mikroiqtisadiyyat mövzularına firma idarəçiliyindən daha ali səviyyədə baxılır.<br>Müəssisədə istehsalın təşkili, istehsal – təchizat zəncirinin idarəolunması, ehtiyatların planlaşdırılması, kadrların düzgün yerləşdirilməsi, fəaliyyətin proqnozlaşdırılmasına daha dərindən nəzəri və praktiki olaraq yanaşılacaqdır.<br>Müasir firma iqtisadiyyatının idarəolunmasında başlıca istiqamət olan Korporativ idarəetməyə də toxunulacaqdır. Burada müəssisənin maraqlı tərəflərinin aydınlaşdırlması, onların maraqlarının təmini və konfliktlərin idarəolunmasına nəzər yetiriləcəkdir.<br>Bir sözlə kurs müəssisə iqtsadiyyatın qabaqcıl tədris təcrübələrindən istifadə olunaraq tələbələrə ötürülməsindən ibarətdir. | |
| **Kursun məqsədləri** | Bu kursun əsas məqsədi magistrlərin müəssisə iqtisadiyyatının vacibliyini, onun fundamanetal konsepsiyalarını başa düşmələrinə, idarəetmə potensiallarının inkişaf etdirilməsinə və gücləndirilməsinə nail olmaq, onlara qazandıqları bilikləri praktikada tətbiq etməsi üçün şərait yaratmaq və analitik düşüncələrini inkişaf etdirməkdir. | |
| **Tədris öyrənmə nəticələri** | • daxili və xarici biznes mühitini analiz edə və qiymətləndirə bilmək;<br>• müvafiq işgüzar şəraitləri qiymətləndirərək biznes planlar tərtib edə və strateji qərarlar qəbul edə bilmək;<br>• korporativ və biznes səviyyədə strategiyaların hazırlanma prinsiplərini anlamaq;<br>• təqdim etmə bacarıqlarını inkişaf etdirmək;<br>• fikirlərini aydın və inandırıcı şəkildə başqalarına çatdıra bilmək; | |

| **Qiymətləndirmə** | **Amillər** | **İcra tarixləri** | **Faiz (%)** |
|---|---|---|---|

| | | | |
|---|---|---|---|
| | **Davamiyyət** | | 5 |
| | **Fəallıq** | | 5 |
| | **Quiz** | | 10 |
| | **Təqdimat** | | 10 |
| | **Aralıq imtahan** | | 30 |
| | **Final imtahanı** | | 40 |
| | **Ümumi** | | 100 |

| | |
|---|---|
| **Qaydalar** | **Davamiyyət**<br>Dərsə 15 dəqiqə gec gələn tələbələrə qayıb yazılacaq və dərsdə iştirakına icazə veriləcək. 25 faizdən çox qaibi olan tələbə final imtahanına buraxılmayacaq.Dərslərdə iştirak mütləqdir.<br>**Aktivlik**<br>Bu hissədə bal tələbənin dərsə aktivliyinə əsasən veriləcəkdir. Tələbə sorğu-sualda aktiv şəkildə iştirak etməlidir.<br>**Yazılı tapşırıq (Quiz)**<br>Semestr ərzində tələbələrə 4 yazılı tapşırıq təyin olunacaq. Tapşırıqların hər biri yekun mümkün qiymətin 5%-ni təşkil edir. Tapşırıqlar analitik mahiyyətdə olmaqla əsasən açıq suallardan ibarət olacaq və tələbələrdən tədris olunmuş nəzəri biliklərin, konsepsiyaların tətbiqini tələb edəcək.<br>**Təqdimatı:** Tələbələrə tapşırıqlar verilir. Tapşırıqların yerinə yetirilməsi zamanı çap materiallarından, elektron mənbələrindən istifadə etmək imkanı olacaq. Əsas məqsəd – verilmiş tapşırığa komanda halında düzgün cavabın tapılmasıdır; komandada işləmək bacarığının öyrənilməsidir. Qrup təqdimatlarının təqdim edilməsinə görə 10 bal tədrisin son həftəsində, final imtahanından əvvəl yazılacaqdır. |

**Cədvəl**

| Həftə | Tarix | Mövzu başlıqları | Mənbə |
|---|---|---|---|
| 1 | | Müəssisələrin formaları, təşkilatı – hüquqi formaları | Firma iqtisadiyyatı bölmə 1 və AR Mülki Məcəlləsi |
| 2 | | Müəssisənin məqsəd və strategiyaları | Əməliyyatın idarəedilməsi səh. 35 |
| 3 | | Müəssisənin Xarici mühiti | İdarəetmənin əsasları kitabı/səh.34 |
| 4 | | Müəssisənin istehsal gücü | Əməliyyatın idarəedilməsi səh. 307 |
| 5 | | İnsan resurslarının idarəolunması | İdarəetmənin əsasları kitabı/səh.196 |
| 6 | | Əməkdaşların həvəsləndirilməsi və mükafatlandırılması | İdarəetmənin əsasları kitabı/səh.328 |
| 7 | | İnsan resursları, işin dizaynı, işin ölçülməsi | Əməliyyatların idarə edilməsi prinsipləri, səh. 407 |
| 8 | | **Aralıq imtahanı** | |
| 9 | | Keyfiyyətin idarə edilməsi | Əməliyyatların idarə edilməsi prinsipləri, səh. 213 |
| 10 | | Müəssisənin maliyyə resursları | Müəssisələrin maliyyəsi səh. 58 |
| 11 | | Layihələrin idarə edilməsi | Əməliyyatların idarə edilməsi prinsipləri, səh. 59 |
| 12 | | Proqnozlaşdırma | Əməliyyatların idarə edilməsi prinsipləri, səh. 105 |

| | | | |
|---|---|---|---|
| 13 | | Malların və əməliyyatların dizaynı | Əməliyyatların idarə edilməsi prinsipləri, 159 |
| 14 | | İstehsal-təchizat zəncirinin idarə edilməsi | Əməliyyatların idarə edilməsi prinsipləri, səh. 441 |
| 15 | | Müəssisədə Korporativ idarəetmənin yeri | Ailə Şirkətlərinin İdarə olunması / İFC |
| 16 | | **Final İmtahanı** | |